# Daxili işlər naziri qüsursuz xidmətlərinə görə Zemfira Meftahətdinovanı mükafatlandırıb



Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmanın son yaş həddi ilə bağlı DİN-in İdman Cəmiyyətinin rəisi, polis polkovniki Zemfira Meftahətdinova ilə görüşüb.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yolasalma mərasimində general-polkovnik Vilayət Eyvazov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, insani keyfiyyətlərini xüsusi vurğulayıb, İdman Cəmiyyətinin rəisi kimi qüsursuz fəaliyyətini yüksək qiymətləndirib.

Sonda nazir Vilayət Eyvazov uzun illər qüsursuz xidmətlərinə görə təltif olunduğu DİN-in "Fəxri fərman"ını Z.Meftahətdinovaya təqdim edib.

Bundan sonra Z.Meftahətdinova fəaliyyətini Azərbaycan Atıcılıq Federasiyasında davam etdirəcək.

Azərbaycan.-2023.-31 may.-S.13.